**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİRZƏ BALA MƏMMƏDZADƏNİN AZƏRBAYCAN MİLLİ- AZADLIQ HƏRƏKATINDA YERİ

İxtisas: 5503.02- Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Səidə Vahid qızı Mehrəliyeva**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Azərbaycan tarixi (humanitar fakültələr üzrə)” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: tarix elmləri doktoru, professor
**Anar Camal oğlu İsgəndərov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Azad Əhmədağa oğlu Rzayev**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Vəkil Səfiyar oğlu Həsənov**

tarix elmləri doktoru, dosent
**Fərhad Rafiq oğlu Cabbarov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Firdovsiyyə Firdovsi qızı Əhmədova**

Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: tarix üzrə elmlər doktoru, dosent
**Fazil Eynulla oğlu Baxşəliyev**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanda özünüdərk, milli kimlik, türkçülük ideologiyası ətrafında birləşmək, müstəmləkəçilikdən xilas olaraq milli inkişaf yolunda addımlamaq istiqamətində fikirlər inkişaf edirdi. Bu fikirlərin yaranmasında, milli hərəkat ideyalarının güclənməsində Azərbaycanın istiqlalı yolunda ömrünün sonunadək mübarizə aparan, azadlıq uğrunda mübarizəsində mühüm rol oynamış Mirzə Bala Məmmədzadə də var idi.

Mirzə Bala Məmmədzadənin milli-azadlıq hərəkatında roluna maraq, eyni zamanda müstəqil Azərbaycan Respublikasında dövlətçilik tarixinin obyektiv araşdırılmasının zəruriliyi, həmin dövrün tarixi təcrübəsini öyrənmək zərurətindən irəli gəlir.

1917-1920-ci illərdə mürəkkəb geosiyasi şəraitdə istiqlal ideyalarını təbliğ etmək, milli dövlətçiliyin tanıdılması istiqamətində mübarizə aparmaq böyük çətinliklərlə bağlı idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində, 1918-ci ilin martında bolşevik-daşnak dəstələri türk-müsəlman əhaliyə qarşı amansız qırğınlar törətmiş, İrəvan, Naxçıvan, Şamaxı, Quba, Gəncə, Lənkəran qəzalarında azərbaycanlı əhaliyə qarşı amansız cəza tədbirləri görülmüş, qırğınlar törədilmiş, 100 minlərlə azərbaycanlı evindən-eşiyindən didərgin salınmışdı.[1]

Həmin dövrün hadisələrinin öyrənilməsi baxımından Mirzə Bala Məmmədzadənin yaradıcılığı misilsiz əhəmiyyətə malikdir və tədqiq edilməsinə böyük ehtiyac vardır.

Mirzə Bala yaradıcılığının ən mühüm xüsusiyyəti istiqlala və onun qələbəsinə inam hissi idi. O, bu istiqlala həm inanır, hətta ətrafındakı insanları da inandırır və ruhlandırırdı.[2]

M.B.Məmmədzadə türk olması ilə fəxr edir, türkçülüyü müqəddəs bir ideologiya hesab edirdi. O, türkçülük hərəkatına önəm vermiş, bunu özünün müxtəlif yazılarında və məqalələrində göstərmişdir. Digər istiqlalçılar kimi, Mirzə Bala da, nəinki Azərbaycanın,

---

[1] İsgəndərov, A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920 / – Bakı: Adiloğlu, 2006. – s. 24.

[2] Mətbuatımızın Mirzə Bala Məmmədzadəsi // https://sherg.az/arxiv/46848

bütün türk dünyasının öz istiqlal və azadlığına qovuşmasının və onların milli hökumətlərinin yaradılmasının təbliğatçısı idi.[3]

Türk dövlətləri şərəfli tariximiz olan 44 günlük Vətən Müharibəsi günlərində Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etmişlər. Bununla əlaqədar Azərbaycanın dövlət başçısı İlham Əliyev 2024-cü il fevralın 14-də keçirilən rəsmi andiçmə mərasimində bildirmişdir: *"...ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir...Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır...*

*Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var. ...Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik."*[4]

Göründüyü kimi, problemin araşdırılması müasir Azərbaycan Respublikasının xarici siyasət prioritetləri baxımından da aktualdır.

M.B.Məmmədzadə mühacirətdə yaşadığı dövrdə yazdığı məqalələrində milli hərəkatı, milli istiqlal və azadlıq uğrunda mübarizəni inadla müdafiə etmiş, bolşeviklərin Azərbaycanda milli mədəniyyətin məhv edilməsi üçün həyata keçirdikləri qeyri-insani tədbirləri, terror və zülmü tənqid etmiş, "Yeni Qafqasya", "Azəri Türk", "Odlu Yurd", "Qurtuluş" kimi jurnallarda və "Bildiriş", "İstiqlal" qəzetlərində öz ideya və fikirlərini istiqlal savaşının iştirakçılarına çatdırmağa müvəffəq olmuşdur.[5]

Mirzə Bala Məmmədzadə M.Ə.Rəsulzadənin vəfatından sonra

---

[3] Əfsanəvi bayraqdar. Mirzə Bala Məmmədzadə xatirələrdə. / – Bakı: Mücrü, 2021. – s. 8-9.

[4] İlham Əliyevin andiçmə mərasimi keçirilib, 14 fevral, 2024 // https://president.az/az/articles/view/63979.

[5] Telli Korkmaz. Azerbaycan milli mücadelesinin öncülerinden Mirza Bala Mehmetzade ve Açik söz gazetesi // Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt:12 Sayı: 1 Mart 2022 – s. 187-193.

Almaniyada Müsavat Partiyasına rəhbərlik etmiş, ömrünün sonunadək bu şərəfli vəzifənin öhdəsindən layiqincə gəlmişdir.[6]

M.B.Məmmədzadənin Azərbaycan mühacirəti ilə bağlı elmi və publisistik yazıları çox dəyərlidir. Azərbaycan mühacirətinin yaranması, təşkilatlanması, inkişafı, missiyası, fəaliyyət istiqamətləri, sovet mühacirləri ilə münasibətləri və s. haqqında məsələləri məhz Mirzə Bala Məmmədzadə elmi əsaslarla işləmişdir. Bunu Mirzə Balanın "Seçilmiş əsərləri"ndə dərc olunan "Rəsulzadə Məhəmməd Əmin bəy 70 yaşında", "Rəsulzadə Məhəmməd Əmin", "Əli Usta və şeirləri", "Azərbaycan mühacirləri", "Batı Avropadakı əsir və mühacir türk kütlələri" adlı məqalələri bir daha sübut edir və onun bu problemə dərindən bələd olduğunu, ona məsuliyyətlə yanaşdığını göstərirdi.[7]

Mirzə Bala Azərbaycan mühacirlərinin xaricdə hər hansı bir himayəyə malik olmadığını, "Cəmiyyəti Əqvamın" (Millətlər Cəmiyyəti) isə Azərbaycandan olan mühacirlərə qarşı qərəzli münasibətini, öz prinsiplərinə zidd hərəkət etdiyini bəyan edir, minlərlə mühacirin taleyinə laqeyd yanaşmasını tənqid edirdi: "*Cəmiyyəti-Əqvamın beynəlmiləl qaçqınlar şöbəsi belə, bu fəlakətə göz yummaqda, erməniləri bu şərtə tabe tutmadığı halda, bizlərə "rus mühaciri" ünvanını almaq şərti ilə yardım edə biləcəyini imha edən cavablar verməkdədir. Cəmiyyəti-Əqvam yalnız rus mühacirlərinə yardım edir və müstəsna olaraq erməniləri himayə edir*".[8]

Dissertasiya işi yazılarkən bir sıra mənbə və ədəbiyyatlardan istifadə edilmişdir. Tədqiqat göstərir ki, Mirzə Bala Məmmədzadənin Azərbaycan milli-azadlıq hərəkatındakı roluna, ictimai-siyasi baxışlarına və təşkilati fəaliyyətinə dair tədqiqatlar həm Vətən, həm də onun ictimai-siyasi, elmi fəaliyyətinin əsas hissəsinin Türkiyədə keçdiyini nəzərə alsaq, Türkiyə tarixşünaslığında aparılmışdır.

Mirzə Bala Məmmədzadə Cümhuriyyətin süqutundan sonra,

---

[6] Mehmetzade, M.B. Azerbaycan Misak-ı Millisi / – İstanbul: Necm-i İstikbal Matbaası ,1927. – s.16.

[7] Tahirli A. "Mirzə Bala Məhəmmədzadə. Seçilmiş əsərləri" haqqında qeydlər // Hürriyyət aşiqi mücahidin həmişəyaşar irsi//http://anl.az/down/meqale/525/2024 /iyun/899906.htm

[8] Yenə orada.

1923-cü ildən etibarən mühacirətdə yaşamışdır. Onun mühacirətdə olan zaman yazdığı mühüm əsərlərindən biri "Ermənilər və İran" kitabı olmuşdur.

Mirzə Bala yazırdı ki, azərbaycanlılardan fərqli olaraq şah hökuməti erməni mühacirlərə hər cür şərait yaratmış, gələn mühacirləri qəbul edib yerləşdirmişdir. Ermənilər İranın hər yerində öz təşkilat və cəmiyyətlərini yaratmış, İranı erməni milli hərəkatının başlıca mərkəzlərindən birinə çevirmişdilər. 1927-ci ildə İstanbulda nəşr olunan bu əsərdə müəllif ermənilərin İranda həyata keçirdiyi təxribatçı "paniranizm", "panariyanizm" siyasətini tənqid etmiş, onun mahiyyətini elmi sübutlarla göstərmişdir.[9]

Mirzə Bala Məmmədzadə bu əsərində Birinci Dünya müharibəsi illərində Osmanlı əhalisinə qarşı zülmlər edən, qətllər törədən ermənilərin Rusiya tərəfindən müdafiə olunduğunu, Anadoluda qüvvələr nisbətinin türklərin xeyrinə dəyişməsindən sonra İrana qaçan ermənilərin Maku, Xoy, Urmiyada yaşayan azərbaycanlılara qarşı kütləvi soyqırımların həyata keçirdiyinin əks olunması, ermənilərin niyətinin ifşa edilməsi və s. məsələlərlə bağlı təhlillər aparmışdır.[10]

Mirzə Bala Məmmədzadə özünün "Milli Azərbaycan hərəkatı" adlı kitabında Müsavat Firqəsinin tarixini Azərbaycan xalqının ictimai fikir tarixi ilə birləşdirərək, onu Mirzə Fətəli Axundovdan başlayaraq müasir Avropa yönlü milli fikir tariximiz kontekstində təhlil edir. Əsərdə Müsavat xalqçı partiya kimi səciyyələndirilir və onun dayaqlarının kəndlilər, fəhlələr, əməkçi ziyalılardan təşkil olunması göstərilirdi.[11]

Mirzə Bala bu əsərində mart soyqırımı ilə bağlı düşüncə və mülahizələrini təhlil etmiş, soyqırımın törədilməsində günahkar və əlbir olan bolşevik və daşnakları ittiham etmişdir. Çünki daşnaklar və bolşeviklər Qafqazda, eləcə də Azərbaycanda milli-azadlıq hərəkatlarını boğmağa çalışırdılar. Buna görə də, Şaumyan cəbhədən qayıdan rus əsgərləri vasitəsilə 1918-ci il martin 31-də qırğına başladı. Üç

---

[9] Əhmədli, R.A. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri / – Bakı: "Ozan", 2017. – s. 119.

[10] İsgəndərov, A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920 / – Bakı: Adiloğlu, 2006. – s. 23.

[11] Məmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı / – Bakı: Nicat, 1992. – 246 s.

gün ərzində davam edən bu qırğınlar zamanı 14 min silahsız insan öldürüldü. Bakı şəhəri hava, quru və dənizdən atəşə tutuldu, məktəb, kitabxana, teatr, mətbəə, maarif və mədəniyyət müəssisələri dağıdıldı.[12]

Mirzə Bala Məmmədzadə "Azərbaycan Misak-ı Millisi" əsərində 1918-ci il mayın 28-də qəbul olunan İstiqlal bəyannaməsini təhlil etmiş, 1918-1920-ci illərdə baş verən tarixi prosesləri izləmişdir.[13]

Mirzə Bala Məmmədzadənin digər əsərində istiqlal ərəfəsində Azərbaycanda mövcud olan mürəkkəb şərait, xalqın başına gətirilən fəlakətlər öz əksini tapmışdır.[14]

M.Ə.Rəsulzadənin "Azərbaycanda milli hərəkat" adlı əsərində[15] Azərbaycanda milli hərəkatın xüsusiyyətləri, ideya-siyasi kökləri, Azərbaycan maarifçiləri və ideoloqlarının, o cümlədən Mirzə Balanın bu prosesdə rolu, Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik istilasından sonra həyata keçirilən yeni iqtisadi siyasət (YİS), kollektivləşmə siyasəti və onun acı nəticələri öz əksini tapmışdır.

Əsərdə mühüm tarixi arxiv sənədlər əsasında Müsavat partiyasının tarixi, Gizli Müqavimət Komitəsinin yaradılması, Müsavatın Türkiyə, Polşa və Almaniyada fəaliyyəti, müsavatçıların "Prometey" təşkilatının yaradılmasında iştirakı, 1936-cı ildə partiyanın yeni proqram sənədinin qəbul edilməsi kimi məsələlər öz əksini tapmışdır.

Nəsiman Yaqublunun "Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə" əsərində[16] milli hərəkat və Azərbaycanın istiqlalı ərəfəsi və dövründə, mühacirət mərhələsində baş verən siyasi hadisələr, istiqlal mücahidlərinin fəaliyyəti araşdırılmışdır.

Mövzunun araşdırılmasında tədqiqatçı-alim, professor Rafail Əhmədlinin Mirzə Bala Məmmədzadənin ictimai-siyasi görüşləri ilə

---

[12] İsgəndərov, A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920 / – Bakı: Adiloğlu, 2006. – s. 23.

[13] Mehmetzade, M.B. Azerbaycan Misak-ı Millisi / – İstanbul: Necm-i İstikbal Matbaası, 1927. – s.16.

[14] Məmmədzadə Mirzə Bala. Azərbaycan Milli Xartiyası // Azərbaycan jurnalı. Azərbaycan Yazıçılar İttifaqının aylıq ədəbi-bədii orqanı. 1991, 4, 91, S. 133-149.

[15] Rəsulzadə, M. Ə. Azərbaycanda milli hərəkat / – Bakı: Elm, 2009. / – 128 s.

[16] Yaqublu, N.Q. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. / – Bakı: Elm və təhsil, – 2001. – 80 s.

bağlı monoqrafiyası mühüm əhəmiyyət kəsb etmişdir.[17]

Dissertasiya yazılarkən tarixçi Xaləddin İbrahimlinin "Azərbaycan mühacirəti tarixi" əsərinə münasibət bildirilmişdir.[18] Kitabda 1920-ci il 27 aprel işğalı ilə süqut etmiş Azərbaycan Xalq Cümhuriyyətinin, dövlət müstəqilliyinin yenidən bərpası uğrunda mübarizə aparan mühacirlərin, o cümlədən Mirzə Bala Məmmədzadənin ardıcıl və qətiyyətli fəaliyyəti, mürəkkəb şəraitdə müxtəlif ölkələrdə, onlarla ictimai-siyasi təşkilatın, mətbu orqanların yaradılması, otuzdan artıq qəzet və dərginin ərsəyə gəlməsindən bəhs olunmuşdur.

Dissertasiyada tarix elmləri doktoru, professor Musa Qasımlının əsərlərinə münasibət bildirilmişdir. Musa Qasımlının əsərlərində Mirzə Bala Məmmədzadənin və digər azadlıq mücahidlərinin Gizli Müqavimət Komitəsindəki fəaliyyətindən bəhs edilmişdir.[19]

Tədqiqatçılardan Abid Tahirlinin "Azərbaycan mühacirət mətbuatı" adlı monoqrafiyasında[20] "Yeni Qafqasya", "Odlu Yurd", "Azərbaycan Yurd Bilgisi", "Azərbaycan" jurnallarında mühacirət nümayəndələrinin, o cümlədən Mirzə Bala Məmmədzadənin əsərlərinə geniş yer verilmişdir.

Tədqiqatçı Bədirxan Əhmədlinin "Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri" kitabında[21] Azərbaycan mühacirət dövrü ədəbiyyatı, mətbuatı araşdırılmışdır. Bu əsərdə Mirzə Balanın fəaliyyətinə münasibət bildirilmişdir.

Mirzə Bala Məmmədzadənin elmi və ədəbi yaradıcılığının, irsinin və baxışlarının öyrənilməsində T.Ə.Aslanovanın dissertasiyası faydalı olmuşdur.[22]

---

[17] Əhmədli, R.A. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri / – Bakı: "Ozan", 2017. – 448 s.

[18] İbrahimli, X.C. Azərbaycanın mühacirəti tarixi / – Bakı: ADPU nəşriyyatı, 2012. – 358 s.

[19] Qasımlı, M.C. Azerbaycan Türklerinin Milli Mücadele Tarihi 1920-1945. / – İstanbul: Kaknüs Yayınları, 2006. – s.147.

[20] Tahirli, A.H. Azərbaycan mühacirət mətbuatı / – Bakı: Qapp-Poliqraf, 2002. – 160 s.

[21] Əhmədli, B.B. Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri. / – Bakı: Elm və təhsil. 2017. – 376 s.

[22] Aslanova, T. Ə. Mirzə Bala Məmmədzadənin ədəbi-elmi yaradıcılığı: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2014. – 143 s.

Mirzə Balanın milli hərəkatda rolu, ədəbi, mədəni sahədə fəaliyyəti ilə bağlı məsələlərin araşdırılmasında A.Rüstəmli və E.Mədətlinin, A.M.Qasımlının araşdırma və təhlilləri əhəmiyyətli olmuşdur.[23]

Türkiyə tarixşünaslığında aparılan araşdırmalardan biri Əfqan Vəliyevin monoqrafiyası[24] və “Sosial düşüncə tarixində Mirzə Bala Məmmədzadə” mövzusunda magistr dissertasiyasıdır.[25] Müəllif araşdırmalarında Mirzə Balanın həyat və fəaliyyəti, Azərbaycan parlamentinin yaranmasında iştirakı, Müsavat partiyasında fəaliyyətinə dair tədqiqatlar aparmış, Türkiyə, Polşa və Almaniyadakı elmi və yaradıcı fəaliyyəti tədqiq edilmişdir.

Türkiyə tarixşünaslığında Nazilə Abbaslının istiqlal mübarizəsi və Azərbaycan mətbuatı ilə bağlı doktorluq dissertasiyası[26] da problemin öyrənilməsinə kömək etmişdir.

Türkiyə tarixşünaslığının görkəmli nümayəndələrindən olan Sibel Demircinin əsərləri mövzunun tədqiq edilməsində əhəmiyyətli olmuşdur. Onun Mirzə Bala irsinə həsr edilən əsərlərində Türkiyədə mətbu orqanlarda Azərbaycanın istiqlaliyyəti, kommunizmin əsl siması ilə bağlı dərc olunan yazılarına, elmi fəaliyyətinə diqqət yetirilmişdir.[27]

Müəllifin daha bir “Türk siyasi və düşüncə həyatında Rusiya türkləri” adlı kitabında 1945-1960-cı illərdə Rusiya türkləri ilə bağlı araşdırmalar, XX əsrin əvvəllərində türkçülüyün inkişafı, türklərin ay-

---

[23] Rüstəmli, A. Mirzə Bala Məhəmmədzadənin “Cənnət quşu” hekayəsi - Asif Rüstəmlinin təqdimatında // https://literature.az/?page=118935&newsId= 118935 &lang=aze; Rüstəmli A. Mirzə Bala Məmmədzadənin bir naməlum hekayəsi // ədəbiyyat qəzeti, 2024, 27 yanvar, s. 9; Mirzə Bala Məhəmmədzadə. Cənnət quşu. // “Qırmızı günəş” jurnalı, Bakı, 1921, 15 dekabr, №2, s.7-9.; Mədətli E. Mirzə Bala Məhəmmədzadə irsinə dair dəyərli araşdırma // http://www.anl.az/down /meqale/525/2018/fevral/579511.htm

[24] Veliyev, A. Azerbaycan siyasi düşünce tarihi ve Mirze Bala Mehmetzade / – İstanbul: Kador Ajans, 2006. – 395 s.

[25] Veliyev, A. Sosyal düşünce tarihinde Mirza Bala Mehmetzade.Yüksek lisans tezi. / – İstanbul: İstanbul Universitesi, Sosyal bilimler Enstitüsü, 1999. – 166 s.

[26] Abbaslı, N. Azadlık mücadeleleler i ve Azerbaycan basını. Doktora tezi // İstanbul: İstanbul Universitesi, Sosyal bilimler Enstitüsü, 1999. – 215 s.

[27] Demirci, S. Mirza Bala Mehmetzade ve soğuk savaş yazıları / – İstanbul: Post, 2022. – s. 54.; Yenə onun. Mirza Bala Mehmetzadenin ilmi yazıları / –İstanbul: Post, 2022. – s.21-26.

dınlanması istiqamətində Ziya Göyalpın, İsmayıl bəy Qaspiralının, Yusif Akçuranın, Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin, Əhməd bəy Ağaoğlunun maarifçilik fəaliyyətinin rolu, müasirləşmə və millətçiliyin bir ideologiyası kimi cədidçiliyin mahiyyəti məsələləri öz əksini tapmışdır. Əsərdə 1923-cü ildən sonra Azərbaycan mühacirətinin Türkiyədə yerləşməsi və burada Məmməd Əmin Rəsulzadənin təşəbbüsü ilə kommunizmə qarşı türk dünyasında yayımlanan ilk dərginin – "Yeni Qafqasya" nın nəşr edilməsi, 1926-cı ildə fəaliyyətinin dayandırılmasına baxmayaraq yenidən "Azəri Türk" adı ilə dərc olunmasından bəhs edilmişdir.[28]

Türkiyə tarixçilərindən Səbahəddin Şimşirin "Azərbaycanın istiqlal mücadiləsi" əsərindəki məlumatlar mövzunun öyrənilməsinə cəlb edilmişdir.[29]

Eyni zamanda Aygün Attar və Səbahəddin Şimşirin birgə müəllifi olduğu əsər Türkiyədə yaşayan Azərbaycan mühacirətinin, həmçinin M.Ə.Rəsulzadə, Mirzə Bala Məmmədzadənin fəaliyyətini öyrənmək baxımından faydalı olmuşdur.[30] Mövzunun müxtəlif aspektlərinin araşdırılmasında A. Budak[31], M.İnce[32], E. Gümüşsoy,[33] T.Korkmaz[34] və digər müəlliflərin elmi araşdırmaları faydalı olmuşdur.

Mövzunun tədqiq edilməsi zəngin mənbə bazasına əsaslanır. Mirzə Bala Məmmədzadə milli mübarizə problemlərinin tədqiqatçısı kimi çıxış edir və hadisələrə tarixçi kimi yanaşırdı. Onun Azərbaycan

---

[28] Demirci, S. Türk siyasi ve düşünce hayatında Rusya türkleri (1945-1960). / – İstanbul: Post, 2020. – 296 s.

[29] Şimşir, S. Azerbeycanın istiklal mücadelesi / – İstanbul: İQ Kültürsanat yayıncılık, 2002. – 272 s.

[30] Attar A, Şimşir, S. Türkiyədə yaşayan Azərbaycan türkləri / – Ankara: Berikan yayınevi, 2013. – 265 s.

[31] Müsavat partisinin 1911 – 1922 yillari arasindaki faaliyetleri // Fırat Üniversitesi Sosyal Bilimler Dergisi.The Journal of International Social Sciences, Cilt 28, Sayı 2. – s. 333-343.

[32] Azerbaycan Muhaceretinin Etkili Bir Yayını; Bildiriş Gazetesi (1930-1931) // Karabük Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2016, 6 (2), 545-558;

[33] Mehmed Emin Resulzâde ve Milliyetperver Bir Mecmua; Azerî Türk // KSÜ Sosyal Bilimler Dergisi 4 (1-2), 2007. – s. 45-55.

[34] Telli, K. Azerbaycan milli mücadelesinin öncülerinden Mirza Bala Mehmetzade ve açık söz gazetesi // Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt:12 Sayı: 1 Mart 2022, – s. 187-193.

Xalq Cümhuriyyətinin tarixi ilə bağlı yazdığı "İflas nədən oldu?",[35] "Azərbaycan parlamentosu,[36] "Azerbaycanın milli şurası",[37] "Azərbaycan universiteti"[38] adlı məqalələri Şərqin ilk respublikası olan Cümhuriyyətin tarixinə dair qiymətli mənbələr hesab olunur. Bu əsərlər dövrün tarixi prosesləri və problemləri ilə bağlı olmuş, Vətənə sevgi ruhunda və xüsusi yanğı ilə yazılmışdır.

Problemin öyrənilməsi ilə bağlı mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Türkiyə və Avropa arxivlərindən əldə edilən, Mirzə Bala Məmmədzadənin "Odlu Yurd", "Azərbaycan", "Birləşik Kafkasya", "Azərbaycan Yurd Bilgisi", "Dərgi" kimi məcmuələrin XX əsrin 30-50-ci illərində dərc olunan sayıları.

2) İkinci qrup araşdırmalara isə dövrün hadisə və proseslərini, milli hərəkat nümayəndələrinin fəaliyyətini qeyri-obyektiv təhlil və təhrif edən mənbələr aiddir.

Azərbaycan Xalq Cümhuriyyəti ərəfəsi və dövründə Azərbaycan milli hərəkatında Müsavat partiyasının mənfi rolu, guya fəhlə hərəkatına dəstək verməməsi, Denikinə lazımi müqavimət göstərməməsi, bir sıra "cinayətlər"də iştirakı və sovet Rusiyasının işğalı ərəfəsində Məmməd Əmin Rəsulzadənin və onun mübarizə yoldaşlarının son damla qanlarınadək mübarizə aparmaqlarını bəyan etsələr də, buna əmin olmamaları, aprelin 27-də Azərbaycan işğal olunan zaman vağzalda Nəsib bəy Yusifbəylinin saxlanılması və onun çemodanından 98 milyon rubl pul və qiymətli kağız aşkarlanması kimi qeyri-obyektiv və absurd fikirlər A.Q.Qarayevin əsərində verilmişdir. Əsərdə Müsavat hökuməti satqın kimi göstərilmiş, yalnız öz ciblərini düşünmələri, rüşvətlə, qəsbkarlıqla məşğul olmaları və partiya üzvlərinin kəndlərdə qızlara qarşı qeyri-etik davranışları haqqında cəfəng

---

[35] Mehmetzade, M.B. İflas neden oldu // İstanbul: Odlu yurt, 1929, №7. – s.297-302.
[36] Mehmetzade, M.B. Azerbaycan parlamentosu // İstanbul: Odlu yurt, 1930, №11 (23). – s.425-429.
[37] Mehmetzade, M.B. Azerbaycan Milli Şurası // Ankara: Azerbaycan, 1952, №4. – s. 4-6.
[38] Mehmetzade, M.B. Azərbaycan universitesi // Paris-Münxen: Azərbaycan, 1953, № 8-9. – s.5-7.

fikirlər yer almışdır.[39]

3) Problemin araşdırılmasında Mirzə Balanın ictimai-siyasi və yaradıcı, elmi, ədəbi fəaliyyəti ilə bağlı müasir dövrü mətbuat materialları və ya onların internet resursları faydalı olmuşdur.

4) Mirzə Bala Məmmədzadə haqqında xatirələrin, onun məqalə və yazılarının toplandığı kitablar mənbələrin digər qrupunu təşkil edir. Bu baxımdan, müxtəlif yazarların – Rəhim Vahid, Aydın Mədətoğlu, Asif Rüstəmlinin və digərlərinin ona həsr olunmuş məqalə və yazılarının cəmləşdiyi "Əfsanəvi bayraqdar. Mirzə Bala Məmmədzadə xatirələrdə",[40] AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşəbbüsü ilə nəşr olunan "Mirzə Bala Məhəmmədzadə. Seçilmiş əsərləri"[41] əhəmiyyətli olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Mirzə Bala Məmmədzadənin Azərbaycanın milli-azadlıq hərəkatında, Cümhuriyyətin yaranmasında yeri və rolu tədqiqatın obyekti olaraq müəyyənləşdirilmişdir. Mirzə Bala Məmmədzadənin Azərbaycanın milli-azadlıq hərəkatında ideoloq, yazar, təşkilatçı kimi rolu, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında, dövlətin mövcudluğu dövründə və bolşevik işğalından sonra mühacirətdə ictimai-siyasi və ədəbi istiqamətdə İran, Türkiyə və Avropadakı fəaliyyəti və istiqlal uğrunda mübarizəsinin öyrənilməsi tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Mirzə Bala Məmmədzadənin Azərbaycan milli-azadlıq hərəkatı və Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda sovet Rusiyasının işğalından sonrakı illərdə mühacirət dövrü fəaliyyətinin kompleks və sistemli şəkildə araşdırılmasıdır. Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Mirzə Bala Məmmədzadənin həyat və fəaliyyəti, Azərbaycan milli-azadlıq hərəkatında rolu ilə bağlı ən mötəbər mənbə və ədəbiyyatları toplamaq, onları sistemləşdirmək və təhlil etmək;

---

[39] Караев, А.Г. Из недавного прошлого (Материалы к истории Азербайджанской Коммунистической Партии (б)) / – Кооп.Издательство при БК АКП «Бакинский рабочий», 1926. – с. 121-123.

[40] Əfsanəvi bayraqdar. Mirzə Bala Məmmədzadə xatirələrdə / – Bakı: Mücrü, 2021. – 84 s.

[41] Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası. VII cild. Mirzə Bala Məhəmmədzadə. Seçilmiş əsərləri. / – Bakı: Elm və təhsil, 2023. – 612 s.

- Mirzə Bala Məmmədzadənin XX əsrin əvvəllərində Azərbaycan milli-azadlıq hərəkatında iştirakı, ictimai-siyasi mövqeyi, təşkilati fəaliyyətini öyrənmək;
- Mirzə Bala Məmmədzadə və Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olan Məmməd Əmin Rəsulzadəni milli-azadlıq hərəkatında birləşdirən amilləri müəyyənləşdirmək və "Açıq söz" qəzetində fəaliyyətini araşdırmaq;
- Milli-azadlıq hərəkatı dövründə Mirzə Bala Məmmədzadənin ideya-siyasi baxışlarını araşdırmaq və təhlil etmək;
- Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında Mirzə Bala Məmmədzadənin rolunu müəyyənləşdirmək, onun parlamentdə fəaliyyətini öyrənmək;
- Azərbaycan Xalq Cümhuriyyətinin "İstiqlal Bəyannaməsi"nə Mirzə Bala Məmmədzadənin yanaşmasını təhlil etmək;
- Azərbaycan Xalq Cümhuriyyəti dövründə Mirzə Balanın ictimai-siyasi xadim və yazar olaraq fəaliyyətini araşdırmaq;
- Cümhuriyyətin sovet Rusiyası tərəfindən işğalına Mirzə Bala Məmmədzadənin münasibətini təhlil etmək;
- Cümhuriyyətin süqutundan sonra Müsavat partiyasını fəaliyyəti, Gizli Müqavimət Komitəsinin rəhbəri kimi Mirzə Balanın siyasi və ictimai fəaliyyətini araşdırmaq;
- Bolşevik işğalından sonra Mirzə Balanın İran və Türkiyədə ictimai-siyasi, yaradıcı fəaliyyətini öyrənmək;
- Mirzə Balanın mühacirət dövründə Avropa ölkələrində - Polşa və Almaniyada Azərbaycanın istiqlalı uğrunda mübarizəsi istiqamətində gördüyü işləri araşdırmaq və yazdığı əsərlərini təhlil etmək;
- Mirzə Bala Məmmədzadənin "İstiqlal", "Yeni Qafqasya", "Azəri Türk", "Odlu Yurd", "Azərbaycan Yurd Bilgisi", "Azərbaycan", "Qurtuluş", "Bildiriş", "Milliyyət", "Cümhuriyyət", "Birləşik Kafkasya" qəzet və dərgilərində dərc olunan məqalələri, elmi əsərləri araşdırmaq və onları təhlil etmək;
- Mirzə Bala Məmmədzadənin Müsavat partiyasının başqanı olaraq fəaliyyətini araşdırmaq;
- Mirzə Balanın ictimai-siyasi, iqtisadi və mədəni mövzularda dərc olunan məqalə və yazılarını araşdırmaq, onları təhlil etmək, nəticələr çıxarmaq.

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını tədqiqata cəlb olunan material və faktların, fikir və mülahizələrin, müəllifin elmi əsərlərinin obyektiv təhlili təşkil edir. Mövzuya dair mötəbər mənbə və ədəbiyyatlar toplanmış, sistemləşdirilmiş və mühüm elmi nəticələr əldə edilmişdir.

Tədqiqatın aparılması zamanı tarix elmində qəbul olunmuş ümumi tarixi metodlardan, tənqidi təhlil, sistemli analiz, ümumiləşdirmə, kontent-təhlil metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın aparılması aşağıdakı müddəaların müdafiəyə çıxarılmasına imkan verir:

- XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatının baş verməsi üçün əlverişli siyasi şərait yaranmış, bu istiqamətdə Azərbaycan maarifçilərinin, mütəfəkkirlərin, ideya daşıyıcılarının mühüm rolu olmuşdur.
- M.Ə.Rəsulzadə, Mirzə Bala Məmmədzadə və digər milli-azadlıq hərəkatı iştirakçıları millətin şüuru, kimliyinin dərk edilməsi ilə bağlı fəaliyyətə üstünlük verirdilər.
- Milli-azadlıq hərəkatının təşkilatlanmasında gənclər mühüm rol oynayırdı və bu məsələdə əsas propaqandistlərdən biri Mirzə Bala idi.
- Mirzə Bala və onun silahdaşları istiqlal mücadiləsini vahid ideyalar ətrafında birləşərək aparırdılar.
- Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və dünya dövlətləri tərəfindən tanınmasında təbliğat fəaliyyətinin həyata keçirilməsi vacib idi. Mirzə Balanın məqalə və digər elmi əsərlərində bu baxımdan istiqlal amili əsas götürülürdü.
- Mühacirət dövründə istiqlalın əldə edilməsi, kommunizm ideologiyasının süquta uğraması üçün, demokratik dəyərlərin bərqərar olması istiqamətində Mirzə Balanın təbliğati, siyasi və yaradıcı fəaliyyəti davam etmişdir.
- Mirzə Bala çətin və mürəkkəb siyasi şəraitdə türk kimliyinin dərk edilməsi, türkçülüyun inkişafı və bütün türk dünyasında yayılması üçün çalışmışdır.

**Tədqiqatın elmi yeniliyi.**

- İlk dəfə Mirzə Bala Məmmədzadənin Azərbaycan milli-azadlıq hərəkatının rəhbərlərindən biri kimi ictimai-siyasi fəaliyyəti Vətən

tarixində tədqiq olunmuşdur;
- İlk dəfə Mirzə Bala Məmmədzadənin milli azadlıq hərəkatına həsr olunmuş əsərləri elmi dövriyyəyə cəlb edilmiş və onun tənqidi təhlili verilmişdir;
- İlk dəfə 70 il sovet dönəmində Mirzə Bala Məmmədzadənin əsərləri ilə bağlı yazılan böhtan xarakterli fikirlər elmi əsaslarla tənqid edilmişdir;
- İlk dəfə Mirzə Bala Məmmədzadənin milli azadlıq hərəkatında aparıcı ideoloji rola malik olması əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada irəli sürülən əsas müddəalar elmi-nəzəri əhəmiyyət daşıyır. Dissertasiya işinin əsas müddəalarından Vətən tarixinə, Azərbaycan Xalq Cümhuriyyətinə, onun qurucu şəxsiyyətlərinə, Azərbaycan mühacirət tarixinə və ədəbiyyatına dair elmi araşdırmalarda, ümumiləşdirilmiş əsərlər, dərslik, dərs vəsaitləri və fənn proqramlarının, ali təhsil müəssisələrində mühazirə mətnlərinin hazırlanmasında geniş istifadə oluna bilər.

Dissertasiyanın işinin əsas material və müddəalarından Cümhuriyyət və mətbuat tarixinə dair seminarların, konfransların və simpoziumların keçirilməsində istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas müddəaları müəllifin Azərbaycanda nəşr olunan 4 və xaricdə dərc edilmiş 1 elmi məqaləsində, 3-ü xaricdə olmaqla 11 tezis və konfrans materiallarında öz əksini tapmışdır. Eyni zamanda tədqiqatın sahələrinə dair müxtəlif konfrans və elmi tədbirlərdə məruzələr söylənilmiş, çıxışlar olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmiş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, 6 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş - 30003, I fəsil - 72309, II fəsil - 107817, III fəsil - 53958 və Nəticə - 8961 olmaqla dissertasiyanın ümumi həsmi 274975 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiya işinin birinci fəsli **"Mirzə Bala Məmmədzadənin Azərbaycan milli azadlıq hərəkatında iştirakı və Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyəti"** adlanır. Fəslin birinci yarımfəsli **"Mirzə Bala Məmmədzadənin 1916-1918-ci illərdə Azərbaycan milli azadlıq hərəkatında iştirakı"** adlanır. Bu fəsildə 1916-1918-ci illərdə Mirzə Bala Məmmədzadənin Azərbaycan milli azadlıq hərəkatında iştirakı, Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində fəaliyyəti, onun "Açıq söz" qəzetində dərc etdirdiyi ictimai-siyasi, milli məzmunlu yazıları və s. kimi məsələlər araşdırmaya cəlb edilmişdir.

Ömrünün çox hissəsini xalqın maariflənməsinə və onun azadlığına həsr edən Mirzə Bala Məmmədzadə 1898-ci il mayın 24-də, bəzi mənbələrdə isə avqustun 13-də[42] Abşeronun Zirə kəndində balıqçı ailəsində anadan olmuşdur. XX əsrin əvvəllərində atası ailəsini dolandırmaq üçün Bakıya köçməli olur və şəhərin Çəmbərəkənd adlanan hissəsində məskunlaşır.

Mirzə Bala Məmmədzadə Azərbaycan xalqının öz dövlətini yaratmaq ərəfəsində olduğu siyasi vəziyyətdə yazarlıq və qəzetçilik fəaliyyəti ilə məşğul olmuşdu. O, çox gənc yaşlarından mətbuatda çıxış etməyə başlamışdı. 1915-ci ildən əməkdaşlıq etdiyi "Açıq söz" qəzetində xalqın tərəqqisində təhsilin, maarifin rolu, məktəblərdə mövcud olan problemlərdən bəhs edən yazılarla çıxış edirdi. 1915-ci ildə Məhəmməd Əmin Rəsulzadənin nəşr etdirdiyi "Açıq söz" qəzetinə ara-sıra məqalələr yazan Mirzə Bala Məmmədzadə, sonradan həmin qəzetin işində fəal iştirak etmişdir.[43]

Mirzə Bala Məmmədzadə Müsavat partiyasının rəsmi orqanı

---

[42] Türkoğlu, İ. Mirza Bala Mehmedzâde //https://islamansiklopedisi.org.tr/mirza-bala-mehmedzade (1898-1959) (istinad tarixi 29 yanvar 2024).

[43] Mirzə Bala Məmmədzadə. // https://musavat.org.az/mirz%C9%99-bala-m%C9%99mm%C9%99dzad%C9%99/

olan “Açıq söz” qəzetində milliyyətçilik, türkçülük, istiqlalçılıq və müxtəlif mövzularda məqalələrlə çıxış etmiş, partiyanın Gənclər təşkilatının orqanı olan “Gənclər Yurdu” dərgisinin baş redaktoru olmuşdu.[44]

Qeyd edək ki, Müsavat partiyasının rəsmi orqanı olan “Açıq söz” qəzeti 1915-ci il oktyabrın 2-də Bakıda nəşr edilməyə başlamışdır.[45] Müsavat partiyasının qurucusu M.Ə.Rəsulzadənin rəhbərliyi ilə nəşr olunan bu qəzetin əsas adı altında “siyasi-ictimai, ədəbi türk qəzeti” ifadəsi yer alırdı. Qəzet dövrün ictimai-siyasi hadisələrini tərəddüd etmədən təsvir edir, Rusiya hakimiyyəti altında olan türklərdə milli şüurun formalaşmasında və Azərbaycan türklərinin milli şüurunun inkişafında mühüm rol oynayırdı. “Açıq söz” ilk dəfə “müsəlman” və “tatar” sözlərinin yerinə “türk” sözünü çəkinmədən işlətmişdir.[46]

Mirzə Bala “Açıq söz” qəzetindən savayı, “Qurtuluş”, “Doğru söz” qəzetlərində də milli oyanışı körükləyən, xalqın və cəmiyyətin problemlərini dilə gətirən məqalələr yazmışdır. O, eyni zamanda “Bəsirət” qəzetində yazı işləri müdiri olaraq çalışmış və qəzetin aktiv yazarlarından biri olmuşdur. “Bəsirət” qəzeti çar hakimiyyətinin münaqişə və ədavət yaratma siyasəti kimi istifadə etdiyi şiə-sünni provokasiyasının qarşısını almağa çalışırdı.[47]

Dissertasiya işinin **“Mirzə Bala Məmmədzadənin Azərbaycan Xalq Cümhuriyyətində yeri və rolu”** adlanan ikinci yarımfəslində 1918-ci il dekabrın 7-dən etibarən Azərbaycan parlamentində yaxın dostu Cəfər Cabbarlı ilə bərabər stenoqrafçı kimi çalışan, bütün çıxışları, məruzələri, görüşləri, qərarları, qanunları qələmə alan Mirzə Bala eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan “Azərbaycan” qəzetinin də yayın müdiri kimi o illərdə hərtərəfli siyasi fəaliyyəti tədqiq edilmişdir.

Onun “Azərbaycan” və “Bəsirət” qəzetlərində ictimai-siyasi

---

[44] Əhmədli, R.A. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri / – Bakı: Ozan, 2017. – s. 43.

[45] Resulzadə, M.Ə. Tutacağımız Yol // Açık Söz, No: 1, S. 1. Cuma 2 Ekim 1915.

[46] Swıetochowski, T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycan’ı 1905-1920, (Çev. N. Mert). / – İstanbul, 1988. – 148 s.

[47] Veliyev, A. Azerbaycan siyasi düşünce tarihi ve Mirze Bala Mehmetzade. / – İstanbul: Kador Ajans, 2006. – s.34.

həyatın bütün sahələrindən bəhs edən yazıları, məqalələri dərc olundu. Onun bir sıra məqalələrində Cümhuriyyət hökumətinin, dövlət müstəqilliyinin düşmənləri ifşa olunurdu.[48] Mirzə Bala Məmmədzadə eyni zamanda Müsavatın Bakı Komitəsinin fəal üzvlərindən idi.[49]

Mirzə Balanın məqalələrində toxunduğu ən mühüm problemlərdən biri yenicə istiqlalını qazanmış Azərbaycan Xalq Cümhuriyyətinin ərazi-sərhəd məsələləri idi.[50]

Dissertasiya işinin **"Mirzə Bala Məmmədzadənin mühacirət dövründə Azərbaycan milli-azadlıq hərəkatında iştirakı"** adlanan ikinci fəslində göstərilir ki, Aprel işğalından sonra Azərbaycanda ictimai-siyasi xadimlərə qarşı terror, qətl və həbslər başlamış, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları, görkəmli ictimai və siyasi xadimlər ölkəni tərk etmək məcburiyyətində qalmışdılar.

Fəslin **"Mirzə Bala Məmmədzadənin İran və Türkiyədəki fəaliyyəti"** adlı birinci yarımfəslinin tədqiqindən aydın olur ki, Mirzə Bala 1923-cü ildə Azərbaycanı tərk edərək Cənubi Azərbaycana gəlmiş, 1927-ci ilə qədər burada Müsavat partiyasının Təbriz komitəsinə rəhbərlik etmişdi. 1923-cü ildə M.B.Məmmədzadə İrana getdikdən sonra orada bütün Müsavat təşkilatlarına rəhbərlik səlahiyyəti ona verilmişdi.[51] M.B.Məmmədzadə 1927-ci ildə Türkiyəyə köçənə qədər həm Cənubi Azərbaycanda, həm də bütün İranda Müsavat özəklərinin möhkəmləndirilməsi və fəallaşdırılması uğrunda yorulmadan çalışmışdır. O, eyni zamanda Ənzəli şəhərində müəllimlik etmişdir. Burada o, Türkiyədə M.Ə. Rəsulzadə ilə əlaqələr yaradaraq, İrana keçmiş Müsavat fəalları arasında əlaqələr yaratmağa çalışırdı.[52]

Mirzə Bala Məmmədzadənin İrana gedişi asan olmamışdı. 1923-cü ilin iyul ayında yerli sovet orqanları tərəfindən Azərbaycan

---

[48] Fərəcova, Z. Zamanın fırtınalarında keçən ömür...Azərbaycan. - 2023.- 18 may. - № 103. – s. 11. // https://www.elibrary.az/docs/qazet/qzt2023_2719.pdf

[49] Mədətli, E. Mirzə Bala Məhəmmədzadə irsinə dair dəyərli araşdırma // http://www.anl.az/down/meqale/525/2018/fevral/579511.htm

[50] Rüstəmli, A. Mirzə Bala Məhəmmədzadə və onun "Gənclər yurdu" məcmuəsi // https://kaspi.az/az/mirze-bala-mehemmedzade-ve-onun-gencler-yurdu-mecmuesi

[51] Əhmədli, R.A. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri / – Bakı: Ozan, 2017. – s.111-112.

[52] Aslanova, T.Ə. Mirzə Bala Məmmədzadənin ədəbi-elmi yaradıcılığı: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2014. – s.19.

Milli Müqavimət hərəkatının orqanı olan və gizli çap edilən "İstiqlal" qəzeti mətbəəsinin yeri müəyyənləşdirilmiş, Müqavimət Komitəsinin və qəzetin nəşr olunduğu mətbəənin bütün işçiləri həbs edilmiş, lakin Mirzə Bala Məmmədzadə imkan taparaq gizlənmiş, 1924-cü ilin may ayında Güney Azərbaycanın Ənzəli şəhərinə mühacirət etmiş, fəqət ÇEKA agentləri tərəfindən təqib edildiyindən o, Qasım Bala adlı köhnə dostunun köməkliyi ilə əvvəlcə Tehrana,[53] oradan da Təbrizə getmiş, bir müddət Təbrizdə yaşadıqdan sonra texnikum məzunu olduğu üçün Cənubi Azərbaycanın Sulduz şəhəri ətrafında şosse yolu çəkilişində mühəndis-texnik vəzifəsində çalışmış, şəxsi evlərdə müəllimlik etməklə yanaşı, M.Rəsulzadənin redaktorluğu ilə İstanbulda nəşr olunan "Yeni Qafqasya" jurnalına məqalələr göndərmişdi.[54]

İranda olduğu zamanlarda Məhəmməd Əmin Rəsulzadənin nəşr etdirdiyi "Yeni Qafqasya" dərgisinə məqalələr göndərən Mirzə Bala Məmmədzadə burada Şimali Azərbaycandan olan mühacirlərin üçüncü, dördüncü nəslinin nümayəndələri ilə görüşməsindən bəhs edərək yazırdı ki, onlar 1813-cü il Gülüstan sülhündən sonra Ərdəbil ətrafında indiyə qədər mühacir hüququ ilə yaşamaqdadırlar.[55] Qeyd edək ki, I və II Rusiya-İran müharibələri nəticəsində Cənubi Azərbaycana mühacir köçləri baş vermişdir.

Mirzə Bala İranda mühacirət həyatı yaşadığı zamanlarda Azərbaycandan köç etmiş mühacirlərlə görüşü haqqında yazırdı. İrandakı ağır mühacirət şərtləri və hökumətin azərbaycanlı mühacirlərə himayəni ciddi şəkildə əngəlləməsi, mühacirlərin çoxunun burada aclıq, xəstəlik və səfalət səbəbindən ölümünə səbəb olmuşdu.[56]

O, İranda mühacirətdə olan zaman mühacirət həyatını "Vətən qaldı" hekayəsində təsvir etmişdir. O, bu hekayədə hürriyyət və müstəqillik mücahidlərinin insanlıq dramı və acı həyatından bəhs etmişdir.[57]

Fəslin **"Mirzə Bala Məmmədzadənin Avropa ölkələrindəki**

---

53 Abbaslı, N. Azadlık mücadeleleri ve Azerbaycan basını. / – İstanbul, 1999. – s.88.

54 Qasımlı, A.M. Azərbaycan Türklərinin istiqlal mücahidi Mirzə Bala Məmmədzadə // Bakı: Türküstan, 2019, 10-16 dekabr. – s. 8.

55 Əhmədli, R.A. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri / – Bakı: "Ozan", 2017. – s. 113.

56 Veliyev, A. Azerbaycan siyasi düşünce tarihi, s. 98-100.

57 Yenə orada, s. 102-103.

**fəaliyyəti"** adlanan ikinci yarımfəslində qeyd olunur ki, Mirzə Bala Məmmədzadə Avropada mühacirətdə olarkən onun Berlində 1938-ci ildə nəşr olunmuş "Milli Azərbaycan hərəkatı" əsərinə əsasən demək olar ki, XX əsrin əvvəllərində Azərbaycanda mühafizəkar, liberal və inqilabçı kimi üç ictimai-siyasi cərəyan var idi.

Gənclərdən ibarət olan inqilabçılar isə Azərbaycan xalqının azadlığı uğrunda dönmədən mübarizə aparır, Azərbaycan inqilabçıları Mirzə Bala Məmmədzadənin təbirincə desək, əvvəlcə rus istiqlalçıları ilə birgə çıxış edirdilər. Amma onlar rus inqilabçılarından milliliyi, milli istiqlalı ön plana çəkmələri ilə fərqlənirdilər. Rus inqilabçıları isə milliliyə əhəmiyyət verməyib sinfiliyi, sinfi mübarizəni özlərinə başlıca məqsəd sayırdılar.[58]

M.Ə.Rəsulzadənin Avropada mühacirətdə olarkən mühüm xidmətlərindən biri "Azərbaycan" jurnalının nəşr edilməsi idi. Jurnal 1952-ci il aprelin 1-də Azərbaycan Kültür Dərnəyinin orqanı olaraq nəşr edilməyə başlandı. Dərginin ilk nüsxəsinin üz qabığında bu sözlər yazılmışdı: "Birlik dirilikdir", "Türkləşmək, islamlaşmaq, müasirləşmək."[59] M.B.Məmmədzadənin və digər müəlliflərin Azərbaycan həqiqətləri ilə bağlı yazıları böyük maraq doğururdu.

Geniş biliyi, Rusiya haqqında yazdığı məqalə və kitablar sayəsində amerikalılar tərəfindən qurulan və baş ofisi Almaniyada yerləşən Sovet İttifaqını Öyrənmə İnstitutunun dəvəti ilə Mirzə Bala Münxenə getmiş və bu qurumun prezidenti vəzifəsində çalışmışdır. Bundan əlavə, institutun türk dilində nəşr etdiyi "Dərgi" adlı jurnalda bir çox məqalələri dərc olundu. Münxendə olduğu müddətdə Rusiyadakı türklərlə bağlı müxtəlif toplantı və konqreslərdə iştirak etdi.[60]

Mirzə Bala Berlində olarkən Azərbaycan mühacirlərinin yaratdıqları "İstiqlal" qəzeti nəşrə başladı. O, bununla əlaqədar olaraq Berlində çap etdirdiyi əsərində yazırdı *"...1932-ci ildə Berlində "Yeni Qafqasya", "Azəri-türk", "Odlu yurd" və "Bildiriş"* redaksiyala-

---

[58] Cəfərov, N. Milli-ictimai fikir tariximizdən (1914- fevral 1917) / – Bakı: Azərnəşr, 1993 – s.5-6.

[59] Yaqublu, N.Q. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. / – Bakı: Elm və təhsil, – 2001. – s. 53.

[60] Türkoğlu, İ. Mirza Bala Mehmedzâde (1898-1959) Azerbaycanlı gazeteci, tarihçi ve politikacı. // https://islamansiklopedisi.org.tr/mirza-bala-mehmedzade

*rının iştirakıyla və eyni proqramla "İstiqlal" qəzeti nəşrə başlamışdır. Sovet hökuməti artıq dəşli olmaq dərəcəsinə gəlirdi. O bütün diplomatik gücünü də hərəkətə gətirmiş, fitnə və fəsad aparatı ilə birgə diplomatik gücünü hərəkətə gətirmiş və "İstiqlal"ın Türkiyəyə girməsinin yasaq edilməsinə müvəffəq olmuşdur."*[61]

Dissertasiya işinin **"Azərbaycan milli azadlıq hərəkatının rəhbərlərindən biri Mirzə Bala Məmmədzadənin xidmətləri"** adlanan üçüncü fəsildə Mirzə Bala Məmmədzadənin Milli Müqavimət Komitəsinə və Müsavat partiyasına rəhbərlik etdiyi illərdəki ictimai-siyasi fəaliyyəti araşdırılmışdır. Fəslin **"Milli müqavimət komitəsinin rəhbəri Mirzə Bala Məmmədzadə"** adlanan birinci yarımfəslində qeyd olunur ki, 1920-ci il aprelin 27-də Cümhuriyyət bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra, aprelin 29-da Bakıda Müsavat partiyasından xaric edilmiş Xəlil İbrahim və Süleyman Abdullayevin vasitəçiliyi ilə Müsavatın fövqəladə konqresi keçirildi. Mirzə Balanın çıxışından sonra konqres səs birliyi ilə bolşeviklər öz vədlərinə sadiq qaldıqları müddətdə Müsavat partiyası onlara qarşı leqal olacaqlar şəkilində bir qərar verərək partiyanın müxalif mövqeyini bəyan etdilər.[62]

Aprel işğalından sonra Mirzə Bala bolşeviklər tərəfindən həbs olunmuşdur. O, həbsdən çıxdıqdan dərhal sonra dostları ilə birlikdə Müsavat partiyasının gizli təşkilatını yaradıb onu Azərbaycanın bütün coğrafiyasına yaydı.[63] Mirzə Bala həmin dövrdə həm Kənd Təsərrüfatı Nazirliyində tərcüməçi kimi fəaliyyət göstərir, həm də Gizli Müqavimət Komitəsinin rəhbəri idi. Gizli Müqavimət Komitəsinin rəhbəri olarkən Mirzə Bala ən böyük dəstəyi məktəb müəllimlərindən və ali məktəb tələbələrindən almışdır. Ruslara qarşı təbliğatçılar yetişdirmək üçün Bakıda və digər bölgələrdə gizli siyasi kurslar və məktəblər fəaliyyət göstərirdi. Bu təbliğat fəaliyyəti Mirzə Balanın

---

[61] Məmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı / – Bakı: Nicat, 1992. – s. 195.
[62] Mehmetzade, M.B. Milli Azerbaycan harekatı / – Ankara: Azrebaycan Kültür Derneği Yayınları, 1991. – s.136-137.
[63] Budak, A. Azerbaycan Musavat Partisinin 1911 – 1922 yılları arası faaliyetleri: / Yüksek lisans tezi/ Ankara: Hacı Bayram Veli Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, 2019. – s. 33.

rəhbərliyi altında həyata keçirilirdi.[64]

Gizli Müqavimət Komitəsinin üç komissiyası var idi: Siyasi işlər komissiyası, Təşkilat və Təbliğat komissiyası, Maliyyə komissiyası.

Mirzə Balanın Gizli Müqavimət Təşkilatına rəhbərliyi onun mükəmməl təşkilatçı olmasını üzə çıxardı.[65]

Bu dövrdə Mirzə Bala Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi, orta məktəbdə müəllim olaraq fəaliyyət göstərmiş, "Yeni yıldız" jurnalında Azərbaycanın tarixinə dair məqalələri çap etdirmiş, 1922-ci ildə isə Bakıda "Azərbaycan türk mətbuatı" adlı əsərini nəşr etdirmişdi.[66]

İşğalın ilk günündən etibarən Müsavat sovet rejiminə qarşı mübarizəyə başladı. Aprelin 27-nə keçən gecə gənc müsavatçı Əbdülvahab Yurdsevər və Mirzə Bala Məmmədzadə Məmməd Əmin Rəsulzadənin evinə gedərək ondan icazə almış və Məmməd Sadıq Quluzadə, Məmməd Həsən Baharlı və Cəfər Cabbarlı ilə birlikdə andiçmə mərasimi ilə Gizli Müsavat Təşkilatını yaratmışdılar.[67] Mirzə Bala Məmmədzadə Cəfər Cabbarlının Çəmbərəkənddəki evində keçirilən gizli iclasda yaradılan Milli müqavimət komitəsinin rəhbəri, Əbdülvahab Yurdsevər onun müavini, Cəfər Cabbarlı isə baş katibi seçildi. Təşkilatın maliyyə katibi M.H.Baharlı, Müsavat partiyasının təşkilatlarını Bakı istisna olmaqla, Azərbaycanın digər regionlarında yenidən qruplaşdırmaq vəzifəsi S.Quluzadəyə verildi. İşə başlayandan az sonra millət vəkili olan Rəhim Vəkilli Siyasi Məsələlər Komissiyasının rəhbəri oldu.[68]

Aprelin 27-də 22 yaşlı gənc Mirzə Bala hakimiyyətdə olmuş ən nüfuzlu partiyanın rəhbərliyinə gətirilsə də, Məmmədzadə həmin tarixi milli matəm günü adlandırır, həmin tarixi 31 mart faciəsi ilə

---

[64] Veliyev, A. Sosyal düşünce tarihinde Mirza Bala Mehmetzade / Yüksek lisans tezi / – İstanbul: İstanbul Universitesi, Sosyal bilimler Enstitüsü, 1999. – s. 30.

[65] Yenə orada. – s. 31.

[66] Əfsanəvi bayraqdar. Mirzə Bala Məmmədzadə xatirələrdə / – Bakı: Mücrü nəşriyyatı, 2021. – s. 18-19.

[67] Budak, A. Azerbaycan Musavat Partisinin 1911 – 1922 yılları arası faaliyetleri: / Yüksek lisans tezi / – Ankara: Hacı Bayram Veli Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, 2019. – s. 99.

[68] Qasımlı, M.C. Azerbaycan Türklerinin Milli Mücadele Tarihi 1920-1945 / – İstanbul: Kaknüs Yayınları, 2006. – s.147.

müqayisə edirdi. [69] Gizli Müsavat Təşkilatı müəllimlər arasında geniş yayıldığı üçün onların fikirləri də ictimaiyyət arasında yayılırdı.[70]

Eyni zamanda, gizli təşkilatla əlaqəsi olan bir çox gənc Türküstanda Ənvər Paşanın başlatdığı Basmaçı hərəkatına qoşulmaq üçün könüllü olaraq bölgəyə köçdü.[71] Sovet İttifaqının yaradılması üzərində aparılan işlər nəticəsində Azərbaycan 30 dekabr 1922-ci ildə SSRİ-nin təsis olunması haqqında müqavilənin imzalanması ilə müstəqilliyini rəsmən itirdi. SSRİ-nin tərkibinə daxil olan Azərbaycan Sovetlərin tərkibində ikinci dərəcəli dövlətə çevrildi. Bu müqaviləni bağlayan demək olar ki, bütün nümayəndələr Kommunist Partiyasının üzvləri idi.

Tədqiq edilən illərdə uğursuz təzyiqlər nəticəsində sovet qəzetlərində Müsavat partiyasının buraxılması ilə bağlı yazılar dərc olundu. Lakin "İstiqlal" qəzeti vasitəsilə Müsavat partiyasının üzvləri bundan vaz keçmədən fəaliyyətlərini davam etdirəcəklərini bəyan etdilər.[72]

İrana getdikdən sonra M.B.Məmmədzadənin 1915-1923-cü illəri əhatə edən parlaq siyasi mübarizə dövrü başa çatdı. O, 1920-23-cü illərdə gizli siyasi mübarizə aparmış, eyni zamanda ədəbi-elmi fəaliyyətini davam etdirmişdir. O, bu illərdə Bakı məktəblərində müəllimılik edir, Sabir kitabxanasının idarə heyətində çalışır, bolşevik zindanından xilas olur, amma Azərbaycanda qalmaq artıq qeyri-mümkün olduğundan 1923-cü ildə İrana getmək məcburiyyətində qalır.[73]

Fəslin **"Müsavat partiyası Mirzə Bala Məmmədzadənin rəhbərliyi illərində"** adlanan ikinci yarımfəslində Mirzə Bala Məmməd Əmin Rəsulzadənin dünyadan köçməsi ilə bağlı 1955-ci ildə "Rəsulzadə Məhəmməd Əmin (1884-1955)" adlı məqaləsini yazmışdır. O, bu yazısında Rəsulzadənin inqilabçı bir azadlıq ordusunun ye-

---

[69] Mirzə Bala Məmmədzadə. İstiqlal mücadiləsi / A Rüstəmli. / – Bakı: Zirə Mədniyyət Mərkəzi, 2018. – s. 15.

[70] Qasımlı, M.C. Azerbaycan Türklerinin Milli Mücadele Tarihi 1920-1945 / – İstanbul: Kaknüs Yayınları, 2006. – s. 156.

[71] Budak, A. Azerbaycan Musavat Partisinin 1911 – 1922 yılları arası faaliyetleri: / Yüksek lisans tezi/ Ankara: Hacı Bayram Veli Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, 2019. – s. 102.

[72] Yenə orada. – s. 103.

[73] Yaqublu, N.Q. Böyük mütəfəkkir. Milli məfkurə adamı // Yeni Müsavat qəz.. 1988, 28 fevral.

tişməsinə bütün ömrünü sərf etdiyini, "Millətlər zindanı" Rusiya imperiyasının ruslaşdırma, müstəmləkə siyaasətinə qarşı mübarizəsindən bəhs etmişdir. O, məqaləsində yazır ki, Rəsulzadə özünün "Milli dirilik" başlıqlı məqalələr seriyasında millətin din birliyini deyil, dil və mədəniyyət birliyinə dayandığını, müsəlmanlığın milləti deyil, dini bir camiə olan ümməti ifadə etdiyini elmi metodla izah etmiş, millətin dini, siyasi, iqtisadi, coğrafi və digər dar və birtərəfli kosmopolit və qeyri-milli tərifi əvəzinə elmi və demokratik tərif vermişdir. Bu tərifə görə, Rusiya daxilindəki türklər, eləcə də azərbaycanlılar hakim və rus milləti ilə heç bir münasibət və bağlılığı olmayan ayrı və müstəqil mövcudiyyətdir.[74]

Bütün həyatı boyu Mirzə Bala öz liderinə sadiq qalmış, Məmməd Əmin Rəsulzadəyə bir çox yazılar həsr etmişdir. Bu yazılar içərisində "Rəsulzadə Mehmet Emin bəy 70 yaşında" məqaləsi xüsusi yer tutur. Mirzə Bala Məmmədzadə bu yazısında Rəsulzadənin həyat və fəaliyyəti ilə yanaşı, bu dövr ərzində baş vermiş tarixi və ədəbi hadisələri təhlil etmiş və onlara siyasi qiymət vermişdir.[75]

Mirzə Bala 1955-ci ildən etibarən Almaniyada fəaliyyət göstərən Sovetlər Birliyini Araşdırma İnstitutunda çalışmağa başlamış, qısa müddətdən sonra institutun Elmi Şurasının sədri seçilmiş və iki il bu vəzifədə qalmışdır. Mirzə Bala eyni zamanda institutun nəşr orqanı olan "Dərgi" jurnalında baş redaktor olmuşdur. "Dərgi" jurnalında Mirzə Balanın 1955-1959-cu illərdə 13 yazısı dərc edilmiş, bu yazılarında jurnalın nəşr siyasətinin əksinə, Sovet İttifaqına qarşı iddialı məqalələr yazmaqda davam etmişdir. Həmin illərdə Mirzə Bala Qafqaz İstiqlal Komitəsi tərəfindən Belində nəşr olunan "Qafqaz" və "Birləşmiş Qafqaz" jurnallarında dərc etdirdiyi məqalələrində Azərbaycanın istiqlalı haqqında düşüncələrini ifadə edirdi.[76]

---

[74] Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası. VII cild. Mirzə Bala Məhəmmədzadə. Seçilmiş əsərləri. / – Bakı: Elm və təhsil, 2023. – s. 447; Mirzə Bala. Rəsulzadə Məhəmməd Əmin // Münih: "Dergi", Sovyetler Birliyini Öğrenme Enstitütü, yıl 1, ocak-mart 1955, sayı 1. – s. 134-139.

[75] Əhmədli, R.A. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri / – Bakı: Ozan, 2017. – s. 172.

[76] Demirci, S. Mirza Bala Mehmetzade ve soğuk savaş yazıları (Cumhuriyet ve Milliyet gazetelerindeki yazıları) / – İstanbul: Post yayınevi, 2022. – s. 64.

Mirzə Bala 1958-ci ildə "Dərgi" məcmuəsində yazdığı məqalədə Sovet İttifaqının din siyasətini tənqid etmişdir. O yazırdı ki, Sovet İttifaqı dövründə Gəncədə yerləşən "İmamzadə", Bakıda "Ətağa" adlı ziyarətgahlara, xüsusilə məhərrəmlik ayında xalq axın etmişdi. Müsəlman icmasının onlara qarşı çıxmaması üçün bolşevik ordusunda xidmət edən əsgərlər üçün "qırmızı/qırmızı" mollalar adlanan dini üləmalar işə götürülürdü. Onlar ölən müsəlman əsgərlərin cənazə mərasimlərini təşkil edirdilər. Mirzə Bala yazırdı ki, Azərbaycanda Sovet İttifaqı dövründə dinə qarşı kitablar nəşr edilirdi. Hətta 1925-ci ilin yanvar ayında Bakıda "Allahsızlar İttifaqı" adlı bir təşkilat da fəaliyyət göstərirdi.[77]

1958-ci il mayın 22-də Moskva radiosunda İslam dininə, onun fəlsəfəsinə, təməl prinsiplərinə qarşı yenidən hücuma başlanıldı. Mirzə Bala yazırdı ki, Kommunist Partiyası islam dininə qarşı müxtəlif metodlardan və taktikalardan istifadə etmiş, İslam millətlərinə qarşı dost və müttəfiq görünməyə çalışmışdır. İslam mədəniyyətinə qarşı həmişə mübarizə aparmış, islam mədəni abidələrini yıxmaq, dağıtmaq, islam üləmalarını aradan qaldırmaq siyasətindən əl çəkməmişdir. Sovet Kommunist Partiyası məscidləri ibadət üçün bağlamış, dini təhsil almağı qadağan etmiş, dinə qarşı hər cür təbliğata imkan yaratmışdır.[78]

Mirzə Bala həmin dövrdə türkçülük ideyası ilə bağlı əhəmiyyətli tarixi fikirlər söyləyirdi. Mirzə Balaya görə "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" şüarı altında inkişaf edən Azərbaycan cəmiyyəti öz kürəyini Rusiyaya, üzünü Türkiyəyə və Qərbi Avropaya çevirmişdir. Bunun nəticəsində Azərbaycan Rusiyanın əsarətindən xilas olmuş, Qərbi Avropanın demokratik prinsipləri əsasında müstəqil və mədəni bir dövlət qurmağa müvəffəq olmuşdur. [79]

Mirzə Bala Məmmədzadə Müsavat partiyasına rəhbərlik etdiyi dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Bakıda Stepan Şaumyanın rəhbərliyi altında törədilən qətliam və həmin

---

[77] Mehmetzade, M.B. Sovyetlerin dini bir müracaatnamesi münasebeti ile. Dergi Mecmuası, N 14, 1958. – s.5; Veliyev, A. Azerbaycan siyasi düşünce tarihi, s. 198.

[78] Yenə orada, s. 199.

[79] Mehmetzade, M.B. "Molla Nesredin" Elli yıl evvel/önce intişar etmiştir // Ankara: Azerbaycan dergisi, Yıl 5, Sayı:2-3 (50-51), Mayıs-Haziran, 1956. – s. 3-7.

ərəfədə ictimai-siyasi vəziyyəti təhlil etmişdir. Mirzə Bala yazırdı ki, həmin illərdə Bakıda kosmopolit bir şərait var idi. Azərbaycan türkləri müstəqillik uğrunda mübarizə aparırdılar. Mirzə Bala yazırdı ki, bu hadisələr nə sinfi mübarizə, nə də proletar inqilabı idi. Bu, milli mübarizə idi. Öldürülənlər arasında Azərbaycan sosialistləri, hətta bolşevik Azərbaycanının komissarları var idi.[80] 1955-ci il martın 6-da vəfat edən M.Ə.Rəsulzadədən sonra Müsavat Partiyasının rəhbəri olan Mirzə Bala eyni zamanda mühacirətdəki türklərin də liderliyini etmiş, 1959-cu ildə vəfat edənə qədər mətbuatdakı fəaliyyəti ilə milli mübarizəyə xidmət etmişdir.[81]

Mirzə Bala Məmmədzadə Müsavat partiyasına rəhbərlik etdiyi illərdə Məmməd Əmin Rəsulzadə ideyalarını təşviq etmiş, elmi fəaliyyətində sovet işğal siyasətinin əsl mahiyyətini ifşa etmişdir.

**Nəticədə** tədqiqat prosesində bir sıra ümumi nəticələrə gəlinmişdir:

- XX əsrin əvvəllərində maarifçi dünya görüşünə malik olan ziyalıların, ideoloqların milli kimliyin dərki, Rusiya asılılığında olan türklərin savadlanması, azadlıq əldə etməsi istiqamətində siyasi, ictimai və ideoloji zəmində apardığı mübarizə, milli qəzet və jurnalların nəşr edilməsi xalqın özünüdərk prosesinə, milli azadlıq hərəkatının inkişafına mühüm təsir göstərdi.
- Mütərəqqi ideyalara əsaslanan milli azadlıq hərəkatının əsas hərəkətverici qüvvəsi gənclər idi. Bu gənclərin içərisində Məmməd Əmin Rəsulzadənin ideyalarından bəhrələnən Mirzə Bala Məmmədzadə xalqın istiqlalı, çar Rusiyasına qarşı mübarizəsi, müstəqil və demokratik dəyərlərə əsaslanan dövlətin yaranmasını təşviq edən elmi, publisistik yazılarla müxtəlif mətbu orqanlarda çıxış edir, milli ruhlu gənclərin vahid amal ətrafında birləşməsinə yardım edirdi.
- Mirzə Bala Məmmədzadə türkçülük, islamçılıq, müasirləşmə ideyalarının fəal tərənnümçüsü, Avropa dəyərlərinə əsaslanan, azad, hürr dövlətin yaradılmasının qatı tərəfdarı idi. Məhz bu ideyaların

[80] Veliyev, A. Azerbaycan siyasi düşünce tarihi, s. 216-217.
[81] Demirci, S. Mirza Bala Mehmetzade ve soğuk savaş yazıları (Cumhuriyet ve Milliyet gazetelerindeki yazıları) / – İstanbul: Post yayınevi, 2022. – s. 64-65.

əsasında müsəlman Şərqində ilk demokratik dövlət – qısa fəaliyyət müddətində mütərəqqi islahatlar keçirən Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Mirzə Bala bu dövlətin yaranmasını dünyaya bəyan edən əsas sənədi – İstiqlal Bəyannaməsinin qəbul olunmasını Azərbaycan tarixinin dönüş mərhələsi adlandırdı.

- Sovet Rusiyasının təqiblərindən xilas olmaq üçün İran, Türkiyə və Avropaya mühacirət etmək məcburiyyətində qalan Mirzə Bala ömrünün sonunadək Azərbaycana qayıtmasa da, milli məsələ – Azərbaycanın azadlığı, müstəqilliyi, milli varlığı, demokratik dəyərlərə əsaslanan milli dövlət olması uğrunda mübarizəsindən çəkinmədi. Mirzə Balanın bütün həyatı boyu mübarizə apardığı və hər zaman inandığı bu mütərəqqi ideyalar və dəyərlər əsasında 1991-ci ildə Azərbaycan sovet asılılığından xilas olaraq dövlət müstəqilliyini bərpa etdi.
- 1991-ci il oktyabr ayının 18-də öz dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi oldu.

Ümumiyyətlə, tədqiq olunan problemin müxtəlif aspekt və istiqamətləri, Cümhuriyyət tarixi və qurucularının fəaliyyətinin araşdırılması istiqamətində tədqiqatların artmasına və zənginləşməsinə öz töhfəsini verəcək.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Mirzə Bala Məmmədzadənin Türkiyə mətbuatında Azərbaycanın milli azadlığı ilə bağlı publisistikası. // – AMEA-nın Gəncə bölməsi. "Xəbərlər" məcmuəsi, 2023 4(8), s.122-127.
2. Mirzə Bala Məmmədzadənin "Müsavat" partiyasında fəaliyyəti. // – Tarix, insan və cəmiyyət".Elmi-nəzəri və elmi-metodik jurnal. 2023 3(40) s.114-124.
3. Mirzə Bala Məmmədzadənin Avropa ölkələrində Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizəsi. Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri, 2023 Cild 71, №3,s.151-161.
4. Mirzə Bala Məmmədzadənin Azərbaycan milli azadlıq hərəkatı uğrunda mübarizəsi. // – Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası. 2023 №2,s.190-198.

5. Azərbaycanın istiqlal mübarizəsi tarixində Mirzə Bala Məmmədzadənin ideoloji düşüncələri. // – Akademik tarih ve düşünce. Türkiyə Cumhuriyyəti, 2024 XI cild, №5 2933-2940.
6. Mirzə Bala Məmmədzadənin əsərlərində mart soyqırımı. // – 1918-ci il mart soyqırımı tarixi tədqiqatlarda" mövzusunda Respublika elmi konfransı.BDU, Tarix fakültəsi 31 mart, 2023, s.32-37.
7. Azerbaijani national fighter. // – Heydər Əliyev: 101 ilin tarixi həqiqələri. Respublika Elmi Konfransının materialları.Bakı 7 may 2024 s.299-301.
8. Mirzə Bala Məmmədzadənin "Gənclər yurdu" məcmuəsində publisistik əsərləri. // – Müsəlman Şərqinin ilk parlamentli respublikası tarixi tədqiqatlarda. Respublika Elmi Konfransının materialları.Bakı 24 may 2024 s.119-123.
9. Mirza Bala Mammadzadeh's work national movement of Azerbaijan as a source for studying the history of Azerbaijan. Межвузовский международный конгресс. Высшая школа: научные исследование. // – Moskva 25 iyul 2024 II cild, s.18-21.
10. Azerbaycan kurtuluş savaşının seçkin lideri Mirza Bala Memmedzade. // – Bayburt, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş V Sosial elmlər konfransı. Türkiyə Cümhuriyyəti, Bayburt ş. 19 oktyabr, 2023,s.276.
11. XX əsrin əvvəllərində Cənubi Qafqazda ictimai-siyasi vəziyyət Mirzə Bala Məmmədzadənin əsərlərində. Cənubi Qafqaz: "Mövcud vəziyyət və perspektivlər" mövzusunda Respublika elmi konfransı. // – AMEA Qafqazşünaslıq İnstitutu. Bakı. 19 oktyabr, 2023, s. 94-95.
12. Mirzə Bala Məmmədzadənin əsərlərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyətinə münasibət məsələsi". Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Doktorantların və Gənc tədqiqatçıların XXVI Respublika Elmi Konfransının materialları. // – Bakı. 17-18 noyabr, 2023. II cild. s.301-303.
13. Mirzə Bala Məmmədzadənin Türkiyədə ictimai-siyasi və publisistik fəaliyyəti". Türk dünyası: Ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış.I Beynəlxalq elmi konfrans.Bakı. 19-20 dekabr, 2023, s.106-109

14. Publicistic writings of Mirza Bala Mammadzade in “Achiq söz” newspaper”. 1918-ci il mart soyqırımı tarixi tədqiqatlarda.II Respublika Elmi Konfransının materialları. . // – Quba. 29 mart, 2024. s.444-447.
15. Mirzə Bala Məmmədzadənin əsərləri Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsində əsas mənbələrdən biri kimi”. Azərbaycan Xalq Cümhuriyyətinin 105-ci ildönümünə həsr olunmuş “Müsəlman Şərqinin ilk Cümhuriyyəti” mövzusunda Respublika elmi konfransı. . // – Bakı. 25-26 may, 2023, s.150-151.
16. The works written by the national ideologist Mirza Bala Mammadzade for the independence of the Azerbaijan people during the years of emigration”. XX international scientific conference. Challenges and problems of modern science, London. // – 30-31.01.25, s.83-85.



Dissertasiyanın müdafiəsi 30 may 2025-ci il tarixində saat 10⁰⁰ Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı şəhəri, Yasamal r/nu., Zahid Xəlilov küç., 23. Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.
Avtoreferat 25 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2025
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 47404 işarə
Tiraj: 100 nüsxə